UOT 364.465 (082). 316.334.3

# MÜHARİBƏ ƏLİLLƏRİNİN AİLƏDAXİLİ MÜNAQİŞƏLƏRİNİN HƏLLİNƏ DAİR

**S.R.MOZƏFFƏRI**
***Bakı Dövlət Universiteti***
***Dr.mozafari@yahoo.com***

*Ailədaxili münaqişələr ailə həyatının bir hissəsidir və istənilən sosial təbəqədə bu tip münaqişələri müşahidə etmək olar. Müharibə əlilləri müharibə zamanı yaralanaraq, fiziki xəsarət, yaxud psixoloji travma aldıqları üçün həssas olub, daha çox münaqişələr daxilində ola bilirlər.*

*Təqdim edilən tədqiqatın əsas məqsədi müharibə əlillərinin həyat yoldaşları ilə münasibətlərinə, ailədaxili münaqişələrin həlli yollarını öyrənməyin təsirini araşdırmaqdır. Tədqiq edilən baş məcmu müharibə əlillərinin yaşı 50-dən az olan həyat yoldaşlarıdır. Bu qadınlar könüllü olaraq 2009-cu il Kərəc şəhərində Fəhmidə adına təlim kursları mərkəzində ailələrin məlumatlandırılması kurslarında iştirak edən qadınlardan ibarət olmuşlar. Kurslarda iştirak edən 160 nəfər müharibə əlili yoldaşından 40 nəfəri seçilmiş və iki qrup çərçivəsində (sınaq və müşahidə qrupu) təqdim edilən anketlər əsasında sorğu keçirilmişdir.*

*Anket vasitəsilə əldə edilən məlumatlar təsviri statistik metoddan (tezlik, faizlər və əsas göstəricilər) və deduktiv-statistik metoddan (müstəqil və asılı dəyişənlər üçün qeyri-parametrik test) istifadə edilərək təhlil edilmişdir.*

**Açar sözlər:** ailədaxili münaqişə, münaqişənin həlli məharətləri, müharibə əlilləri, psixoloji sağlamlıq, ailədə müalicə

## Giriş:

Hazırda müxtəlif məharətlərə malik olmaq ailələrin hərtərəfli inkişafı və ailə institutunun öz funksiyalarını effektiv formada həyata keçirməsi üçün çox vacibdir.

Qeyd edilən məharət və bacarıqlardan biri də, ailədaxili münaqişələrin həllinə yönəlmiş məharətlərdir. Başqa sözlə, məharət, münaqişə yarandıqda insanların həmin münaqişəni həll etmək üçün tətbiq edə biləcəkləri metodlar və üsullardır [1, 78]. Əslində insanın yüksək əlaqə və münasibətlər səviyyəsinə malik olması özünü və digərlərini daha yaxşı "tanıması" deməkdir və məhz elə bu səbəbdən də, insan əlaqələri zəminində təbii olaraq mövcud olan münaqişə fenomeni haqda məlumatlı olmaq zəruri və vacibdir [2, 45].

Münaqişə ailədaxili münasibətlərdə bəzi neqativ halların yaranmasına səbəb olur. Bu neqativ hallara misal olaraq əməkdaşlığın zəifləməsi, cinsi əla-

qənin zəifləməsi, emosional reaksiyaların artması, həyat yoldaşının ailəsi və dostları ilə münasibətlərin zəifləməsi və s. neqativ hallara işarə etmək olar. Belə hesab edilir ki, ailədaxili münasibətlərin səmərəli və müsbət olmasının yeganə yolu ailədaxili münaqişələrə qalib gəlməyi bacarmaqdır. Özünənəzarət, dəyişiklik üçün kifayət qədər fürsət vermək, yaxşıca dinləmək, öz hisslərini sərbəst ifadə etmək və ortaq məqsədləri diqqət mərkəzində saxlamaq ailə sisteminin qorunması və ailə həyatının uğurlu davamına səbəb olan amillərdir.

**Ailə həyatında münaqişəyə səbəb olan amillər:**

Ailədaxili münaqışələrə səbəb olan amillər olduqca çox və müxtəlifdir. Pul, cinsi əlaqə, qohumluq əlaqələri, dostlar, övlad, narkotik maddələrdən istifadə, asudə vaxtı necə keçirmək, dini görüşlərin fərqli olması, xəyanət, qarşılıqlı sevginin zəifləməsi, emosional problemlər, iqtisadi problemlər, xəstəlik, əlaqələrdə və münasibətlərdə yaranan problemlər (biri-birini dinləməyi bacarmamaq), kiçik yaşda evlənmək, peşə ilə əlaqədar problemlər və s. amillər ailədaxili münaqişələr səbəb ola bilər [3, 77].

Yungun fikrincə öz fərqli cəhətlərini bəyan etməyi bacarmayan cütlüklər öz fərqli cəhətlərini bəyan etməyi bacaran cütlüklərə nisbətən daha xoşbəxt olurlar. Aparılan tədqiqatlara əsasən bacarıqsız cütlüklər bacarıqlı cütlüklərə nisbətən daha çox münaqişələr yaşayırlar, mənfi emosiyalar və uzaqlaşmalardan daha çox şikayətlənirlər [4, 138].

Münaqişələrin həllinə nail ola bilməmək səmimiyyətin azalmasına səbəb olur. Buna görə də, cütlüklər münaqişəni mahiyyətini başa düşmək, ona nəzarətin və onu həll etmək haqqında lazımı məlumatı öyrənməli və məharətlər qazanmalıdırlar. Müxtəlif tədqiqatların nəticələrinə əsasən bəzi münaqişələr insanlararası münasibət və əlaqələr üçü daha təhlükəli olurlar. Məsələn, yüksək dərəcədə həyəcanlılıq münaqişənin daha da ciddiləşməsinə və ümumən 3 il müddətində ailə həyatının dağılmasına səbəb olur.

**Ailədaxili münaqişələrə dair konsepsiyalar:**

**1. Koqnitiv (idraki) fərq konsepsiyası**

Bu konsepsiyaya əsasən cütlüklər arasında münaqişəyə səbəb olan amillərdən biri müəyyən bir problemin və yaxud vəziyyətin davamlı olaraq cütlüklər tərəfindən diqqət mərkəzində saxlanılmasıdır. Bu zaman həmin problem və yaxud vəziyyətin fərqli formada dərk edilməsi və fərqli formada yanaşılma nəticəsində başlayan münaqişə davranış və fiziki hərəkətlərdə özünü göstərmiş olur. Ümumilikdə konqonotiv nəzəriyyəyə dair iki yanaşma tipi mövcuddur: a) stimula əsaslanan model, b) davranışa əsaslanan model. Birinci yanaşmada psixoloji vəziyyətlər münaqişənin səbəbi kimi təhlil edilir və ikinci yanaşmada davranış əsas istinad nöqtəsi kimi təhlil edilir.

**a) Bərabərlik nəzəriyyəsi**

Bu nəzəriyyəyə əsasən ədalətsiz münasibətlərdə iştirak edən insanların çoxu bu münasibətlərdən məmnun qalmırlar. Əslində insanların bərabərlik haqda düşüncələri nəticələrin qiymətləndirilməsinə əsaslanır. Fərd münasibət və əlaqədən əldə etdikləri ilə həyat yoldaşının əldə etdiklərini müqayisə edir.

Əgər onların biri həmin əlaqənin ədalətsiz olduğunu düşünərsə, psixoloji gərginlik və nəticədə münaqişənin yaranması qaçılmaz olacaq.

Əgər fərd müəyyən bir vəziyyətdə bərabərlik qaydalarının pozulduğu və yararsız olduğuna inanarsa o zaman həmin şəxs vəziyyətdən narazı qalacaq və əlaqənin sona çatmasında daha maraqlı olacaq [5, 57].

**b) Mübadilə nəzəriyyəsi**

Bu nəzəriyyəyə əsasən insanlar həmişə mükafatın və əldə edilənin itkiyə nisbətən daha dəyərli və daha yüksək olmasında maraqlıdırlar. Onlar daha çox zəhmət və itki tələb edən davranışlardan uzaq olmaq istəyirlər. Deməli A-nın iqtidarı o vaxta qədər B-nin üzərində keçərli hesab edilir ki, A B-nin davanışlarını, itkilərini və əldə etdiyi qazancları nəzarət edə bilsin. Fərdin müəyyən bir əlaqə və münasibətdən əldə etdikləri ən azından onun itkilərinə bərabər olmalıdır. İtkilərlə əldə edilənlər arasında balansın olmaması narazılıq və münaqişələrə səbəb ola bilər və ümumilikdə ailənin vəziyyətini və mövcudluğunu təhlükə ilə üz-üzə qoya bilər.

**Tədqiqatın işlənmə dərəcəsi.** Markend və Hak depressiya əlamətləri ilə ailədaxili münaqişələr və onların həlli yolları (aqressiv davranmamaq) arasındakı əlaqəni öyrənmək məqsədilə 40 nəfərlik bir qrup üzərində müəyyən tədqiqatlar həyata keçirmişdilər (2000). Əldə edilən nəticələrin təhlili və reqressiya analizi nəticəsində aydın olmuşdur ki, depressiya əlamətləri ilə münaqişənin həlli metodları arasında əlaqə mövcuddur. Xüsusilə imtina metodu ilə depressiya arasında çox ciddi əlaqənin olduğu müəyyən edilmişdir.

Eyni zamanda əldə edilən nəticələrin təhlili göstərmişdir ki, depressiya əlamətləri və cütlüyün məmnunluq səviyyəsi münaqişələrin həlli ehtimalını və nəticəsini proqnozlaşdırmaq üçün istinad nöqtəsi ola bilər. Cütlüklərin məmnunluğu və depressiya əlamətləri imtina metodu ilə münaqişəni həll etmək istəyən kişilər üçün və aqressivlik nümayiş etdirməklə münaqişəni həll etmək istəyən qadınlar üçündür; cütlüklərin məmnunluğu aqressiv kişilər üçün və depressiya əlamətləri imtina meylli qadınlar üçün proqnozlaşdırmanın ən optimal əlamətidir [6, 85].

**Tədqiqatın metodologiyası.** Təqdim edilən tədqiqat psevdo-empirik tədqiqat növlərindir. Bu tədqiqat kontrol qrupuna malik olan sınaqdan əvvəl və sınaqdan sonra mərhələli tədqiqatdır. Burada O` sınaqdan əvvəl, X* sınaq əməliyyatı, X kontrol əməliyyatı və O sınaqdan sonranın əməliyyatıdır.

| | | | |
|---|---|---|---|
| Təlim qrupu (E) | O1 | X* | O1 |
| Müşahidə qrup (C) | O` 2 | X | O2 |

Bu anket 42 sualdan ibarətdir ki, cütlüklərarası münaqişələri müəyyən etmək məqsədilə tətbiq edilir. Anket aşağıdakı 7 əsas aspektdən ibarətdir:

1. Əməkdaşlığın zəifləməsi, 5 sual.
2. Cinsi əlaqənin zəifləməsi, 5 sual.
3. Emosional reaksiyaların artması, 8 sual.
4. Övladın himayəsini cəlb etməyə edilən cəhdin artması, 5 sual.

5. Sadəcə öz qohumları ilə fərdi əlaqənin güclənməsi, 6 sual.
6. Həyat yoldaşının qohumları və dostları ilə münasibətlərin zəifləməsi, 6 sual.
7. Cütlüyün öz iqtisadi gəlir və maliyyə işlərini biri-birindən ayırması, 7 sual.

**Tədqiqatdan əldə edilən nəticələr.**

Cədvəl 1

**Sınaq və müşahidə qrupunun demoqrafik göstəriciləri**

| Qruplara dair göstəricilər | | Sınaq qrupu | | Müşahidə qrupu | |
|---|---|---|---|---|---|
| | | Tezlik | Faiz | Tezlik | Faiz |
| Təhsil | Təhsili olmayan | 2 | 10 | 1 | 5 |
| | İbtidai | 6 | 30 | 7 | 35 |
| | Natamam orta | 5 | 25 | 6 | 30 |
| | Orta təhsil | 7 | 35 | 5 | 25 |
| | Universitet | 0 | 0 | 1 | 5 |
| Yaş qrupu | 20-25 | 3 | 15 | 3 | 15 |
| | 26-30 | 3 | 15 | 3 | 15 |
| | 31-35 | 5 | 25 | 5 | 25 |
| | 36-40 | 5 | 25 | 5 | 25 |
| | 41-45 | 3 | 15 | 3 | 15 |
| | 46 və daha çox | 1 | 5 | 1 | 5 |
| Sosial təbəqə | Aşağı | 4 | 20 | 6 | 30 |
| | Orta | 9 | 45 | 9 | 45 |
| | Yuxarı | 7 | 35 | 5 | 25 |

Cədvəl 2

**7 aspekti ehtiva edən ailə daxili münaqişələr anketini cavablayan iki qrupun (sınaq və müşahidə qrupu) arasında müstəqil t testi**

| Aspektlər | Qrup | Say (N) | Orta qiymət | Standart yayınma | Standart səhv | T | α |
|---|---|---|---|---|---|---|---|
| Əməkdaşlıq | Sınaq | 20 | -3.45 | 1.85 | 0.45 | 6.11 | P≤0.05 |
| | Müşahidə | 20 | -0.46 | 0.71 | 0.171 | | P≤0.05 |
| Cinsi əlaqə | Sınaq | 20 | -3.22 | 1.71 | 0.531 | 6.18 | P≤0.05 |
| | Müşahidə | 20 | -0.25 | 0.47 | 0.77 | | P≤0.05 |
| Emosional reaksiya | Sınaq | 20 | -7.12 | 3.10 | 0.640 | 9.61 | P≤0.05 |
| | Müşahidə | 20 | 0.101 | 1.15 | 0.198 | | P≤0.05 |
| Övladdan himayə | Sınaq | 20 | -2.82 | 1.69 | 0.41 | 6.18 | P≤0.05 |
| | Müşahidə | 20 | -0.43 | 0.64 | 0.168 | | P≤0.05 |
| Öz qohumları ilə fərdi əlaqə | Sınaq | 20 | -0.85 | 1.17 | 0.28 | 4.35 | P≤0.05 |
| | Müşahidə | 20 | -0.51 | 0.62 | 0.17 | | P≤0.05 |
| Həyat yoldaşının qohumları ilə əlaqənin soyuması | Sınaq | 20 | -2.35 | 2.21 | 0.526 | 4.29 | P≤0.05 |
| | Müşahidə | 20 | -0.102 | 0.52 | 0.112 | | P≤0.05 |
| Cütlüyün öz iqtisadi gəlir və maliyyə işlərini biri-birindən ayırması | Sınaq | 20 | -2.44 | 2.012 | 0.482 | 3.82 | P≤0.05 |
| | Müşahidə | 20 | -0.615 | 0.87 | 0.210 | | P≤0.05 |

1- Cədvəl 2-n nəticələrinə əsasən sərbəstlik dərəcəsi yəni df = 38 olduğu şəraitdə hesablamaya görə t = 6.11 olub ki, bu da cədvəlin t miqdarından (t = 1.69) böyükdür. Belə olduqda nəticə almaq olar ki, iki qrupda "əməkdaşlığın zəifləməsi" səviyyəsi fərqlidir (yoxlamanın etibarlılığı 95 faizdir). Deməli münaqişələrin həlli məharətinin öyrədilməsi müharibə əlliləri və onların həyat yoldaşlarının arasında əməkdaşlıq səviyyəsinin yüksəlməsinə səbəb ola bilər.

2- Cədvəl 2-n nəticələrinə əsasən sərbəstlik dərəcəsi yəni df = 38 olduğu şəraitdə hesablamaya görə t = 6.11 olub ki, bu da cədvəlin t miqdarından (t = 1.69) böyükdür. Belə olduqda nəticə almaq olar ki, iki qrupda "cinsi əlaqənin zəifləməsi" səviyyəsi fərqlidir (yoxlamanın etibarlılığı 95 faizdir). Deməli münaqişələrin həlli məharətinin öyrədilməsi müharibə əlliləri və onların həyat yoldaşlarının arasında cinsi əlaqənin daha optimal vəziyyətdə olmasına səbəb ola bilər.

3- Emosional reaksiya aspektinin təhlilinə gəldikdə demək olar ki, cədvəl 2-n nəticələrinə əsasən sərbəstlik dərəcəsi yəni df = 38 olduğu şəraitdə hesablanmaya görə t = 9.61 olub ki, bu da cədvəlin t miqdarından (t = 1.69) böyükdür. Belə olduqda nəticə almaq olar ki, iki qrupda "emosional reaksiya" səviyyəsi fərqlidir (yoxlamanın etibarlılığı 95 faizdir). Deməli münaqişələrin həlli məharətinin öyrədilməsi müharibə əlliləri və onların həyat yoldaşlarının arasında emosional reaksiyaların azalmasına səbəb ola bilər.

4- Övladdan himayə aspektinin təhlilinə gəldikdə demək olar ki, cədvəl 4-ün nəticələrinə əsasən sərbəstlik dərəcəsi yəni df = 38 olduğu şəraitdə hesablanmaya görə t = 6.18 olub ki, bu da cədvəlin t miqdarından (t = 1.69) böyükdür. Belə olduqda nəticə almaq olar ki, iki qrupda "övladdan himayə" səviyyəsi fərqlidir (yoxlamanın etibarlılığı 95 faizdir). Deməli münaqişələrin həlli məharətinin öyrədilməsi səbəb olur ki, müharibə əlliləri və onların həyat yoldaşlarının öz övladlarının himayəsini cəlb etmək üçün göstərdikləri səyləri azaltmış olsunlar.

5- öz qohumları ilə fərdi əlaqə aspektinin təhlilinə gəldikdə demək olar ki, cədvəl 2-n nəticələrinə əsasən sərbəstlik dərəcəsi yəni df = 38 olduğu şəraitdə hesablanmaya görə t = 4.35 olub ki, bu da cədvəlin t miqdarından (t = 1.05) böyükdür. Belə olduqda nəticə almaq olar ki, iki qrupda "öz qohumları ilə fərdi əlaqə" səviyyəsi fərqlidir (yoxlamanın etibarlılığı 95 faizdir). Deməli münaqişələrin həlli məharətinin öyrədilməsi müharibə əlliləri və onların həyat yoldaşlarının öz qohumları ilə fərdi əlaqədən daha çox öz həyat yoldaşı ilə daha əlverişli əlaqə yaratmağa cəhd göstərməsinə səbəb ola bilər.

6- Həyat yoldaşının qohum və dostları ilə əlaqələrin soyuması aspektinin təhlilinə gəldikdə demək olar ki, cədvəl 2-n nəticələrinə əsasən sərbəstlik dərəcəsi yəni df = 38 olduğu şəraitdə hesablanmaya görə t = 4.29 olub ki, bu da cədvəlin t miqdarından (t = 1.69) böyükdür. Belə olduqda nəticə almaq olar ki, iki qrupda "həyat yoldaşının qohum və dostları ilə əlaqələrin soyuması" səviyyəsi fərqlidir (yoxlamanın etibarlılığı 95 faizdir). Deməli münaqişələrin həlli məharətinin öyrədilməsi müharibə əlliləri və onların həyat yoldaşlarının

qarşılıqlı olaraq biri-birinin qohumları ilə daha səmimi münasibət yaratmasına səbəb ola bilər.

7- Cütlüyün öz iqtisadi gəlir və maliyyə işlərini biri-birindən ayırması aspektinin təhlilinə gəldikdə demək olar ki, cədvəl 2-n nəticələrinə əsasən sərbəstlik dərəcəsi yəni df = 38 olduğu şəraitdə hesablanmaya görə t = 3.28 olub ki, bu da cədvəlin t miqdarından (t = 1.69) böyükdür. Belə olduqda nəticə almaq olar ki, iki qrupda "cütlüyün öz iqtisadi gəlir və maliyyə işlərini biri-birindən ayırması" ehtimalı fərqlidir (yoxlamanın etibarlılığı 95 faizdir). Deməli münaqişələrin həlli məharətinin öyrədilməsi müharibə əlliləri və onların həyat yoldaşlarına belə bir prinsipi aşılaya bilib ki, cütlüklər ailəyə gətirdikləri gəliri ayırmamalıdırlar.

**Nəticə və təkliflər:** Tədqiqatın nəticələri göstərmişdir ki, ailədaxili münaqişənin həllinə dair məharətlərin öyrədilməsi ilə tədqiq edilənlərin öz həyat yoldaşları ilə qarşılıqlı əlaqəsinin yaxşılaşması arasında əhəmiyyətli əlaqə vardır ($P \leq 0.05$).

Nəticələrə uyğun olaraq təklif edilir:

1.Cəmiyyətin müharibə əlillərinə olan xüsusi yanaşmasını nəzərə alaraq demək olar ki, bu tip vətəndaşlarla onların həyat yoldaşları arasındakı əlaqə və ailədaxili münaqişələri olduqca əhəmiyyətli məsələdir. Məhz elə buna görə də, ailədaxili münaqişələrin həlli məharətləri və metodlarını öyrətmək, müharibə əlillərinin ailələrinin psixoloji sağlamlığına və bu tip ailələrdə ailədaxili problemlərin daha tez həll olmasına səbəb ola bilər. Təklif edilir ki, müharibə əlilləri ailələri və şəhid ailələri üçün təlim kursları təşkil edilsin və onlara ailədaxili münaqişələrin optimal həll yolları öyrədilsin.

2.Ailədaxili münaqişələrə təsir edən əsas amillərdən biri də maddi vəziyyət və gəlir səviyyəsidir. Buna görə də təklif edilir ki, şəhid ailələri və müharibə əlilləri ilə iş üzrə idarələr bu ailələrə göstərilən xidmətlər və maddi yardımların səviyyəsini yenidən gözdən keçirsin. Çünki müharibə əlillərinin bir çox hissəsi daima evdə və ailə ilə birlikdə olduqları üçün bunların hansısa problemlər yaşaması həm özlərinin həm də ailə üzvlərinin sağlamlığına ciddi ziyan verə bilər. Məhz elə buna görə də onların asudə vaxtlarını və ümumilikdə vaxtlarını keçirməsi üçün lazımı tədbirlər həyata keçirilməli və effektiv qərarlar qəbul edilməlidir.

## ƏDƏBİYYAT


1. İzədi Əhmədabadi Yəzdan. Münaqişələrin idarə edilməsi. Tehran: İmam Xomeyni adına universitet, 2000, 458 s. (fars dilində)
2. Yəzdandust Rüxsarə. Cütlüklərin məntiqi və emosional müalicəsinin fərdlərarası qarşılıqlı əlaqə və depressiyaya təsiri. İran psixiatr institutu, klinik psixologiya ixtisası, dissertasiya, 1997, 237 s. (fars dilində)
3. Sənayi Baqer. Ailənin patologiyası // Pedaqoji araşdırmalar jurnalı (birinci il), 1991, № 3, 67 s. (fars dilində)
4. Young Mark E. Counseling and psychotherapy, 1998, 754 P. (fars dilində)
5. Xəlili Mərcan. Ailədaxili münaqişələr və ona təsir edən amillər: Əzzəjhra universiteti, psixoloji məsləhət ixtisası, dissertasiya, 1999, 175 s. (fars dilində)

## О РАЗРЕШЕНИИ ВНУТРИСЕМЕЙНЫХ КОНФЛИКТОВ В СЕМЬЯХ ИНВАЛИДОВ

С.Р.МУЗАФФАРИ

### РЕЗЮМЕ

Внутрисемейные конфликты являются неотделимой частью семейной жизни в любых социальных слоях общества. Инвалиды войны, получившие в период войны физическую или психическую травму, становятся более чувствительными к конфликтным ситуациям. В статье рассмотрены взаимоотношения инвалидов войны с их супругами, пути разрешения здесь конфликтов. В выборку вошли супруги, чей возраст составил менее 50 лет. Это женщины, которые добровольно согласились участвовать в курсах обучения семей, которые были образованы в 2009 году в центре Фахмида в городе Keрадж. Из 160 женщин было отобрано 40 добровольцев и разделены на две группы – экспериментальная и контрольная.

Информация, при этом полученная, была анализирована с помощью статистических методов. Было выявлено, что на уровень конфликтности больше всего влияние оказывает материальное состояние семьи и организация свободного времени.

**Ключевые слова:** внутрисемейный конфликт, умение разрешить конфликт, инвалиды войны, психическое здоровье, лечение в семье.

## SOLUTION OF INTRAFAMILY CONFLICTS IN FAMILIES OF THE DISABLED

S.R.MUZAFFARI

### SUMMARY

Intrafamily conflicts are the inseparable part of home life in any social strata of a society. The disabled veterans having received a physical or mental injury in a war, become more sensitive to conflict situations. The article studies mutual relations of disabled veterans with their spouses, and decision of these conflicts on the example of spouses before they are 50 years. They are the women who voluntarily agreed to participate in courses of families established in 2009 in Fahmida center in the city of Keradzh. Among 160 women, 40 volunteers were selected and classified as experimental and control groups.

The information thus received, was analyzed by means of statistical methods. It has been revealed that the conflictness level is mostly caused by the material condition of a family and organization of leisure time.

**Keywords:** the intrafamily conflict, ability to resolve the conflict, disabled veterans, mental health, treatment in a family.